# Rusiya sülhməramlılarının təchizat avtomobilləri aksiyanın olduğu ərazidən maneəsiz keçib






**Xankəndi-Laçın yolunda Azərbaycan ekoloqlarının, qeyri-hökumət təşkilatlarının nümayəndələrinin, fəalların etiraz aksiyası artıq on bir gündür davam edir.**

AZƏRTAC-ın müxbiri aksiya yerindən xəbər verir ki, Rusiya sülhməramlılarına məxsus daha beş təchizat avtomobili ərazidən maneəsiz keçib. Xatırladaq ki, bundan əvvəl Ermənistan mediasında etirazçıların guya Xankəndi-Laçın yolunu bağlamaları və təchizat maşınlarını buraxmamaları ilə bağlı həqiqətə uyğun olmayan xəbərlər yayılmışdı.

Azərbaycan.- 2022.- 23 dekabr.- S.9.